*“Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir”.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 15 noyabr 2014-cü il | № 87 (1904) | Qiyməti 25 qəpik

# İran Prezidentinin Azərbaycana rəsmi səfəri

Noyabrın 12-də Azərbaycan Respublikasına rəsmi səfərə gələn İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin rəsmi qarşılanma mərasimi olub.

Rəsmi qarşılanma mərasimi başa çatandan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olub. Dövlət başçıları görüşdə çıxış etdilər.

Təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin iştirakı ilə Azərbaycan-İran sənədlərinin imzalanması mərasimi olub.

Sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və İran İslam Respublikasının Prezidenti Həsən Ruhani mətbuata birgə bəyanatlarla çıxış ediblər.



## Prezident İlham Əliyevin bəyanatı

- Hörmətli cənab Prezident. Hörmətli qonaqlar. Hörmətli cənab Prezident, Sizi Azərbaycanda bir daha salamlayıram. Azərbaycana xoş gəlmisiniz. Sizin səfərinizin çox böyük əhəmiyyəti var. Çox şadam ki, səfər çox uğurlu keçir. Bu il biz Sizinlə dördüncü dəfədir ki, görüşürük. Bu, özlüyündə bir göstəricidir. Çünki onu göstərir ki, İran-Azərbaycan əlaqələri yüksələn xətlə inkişaf edir. Bu görüşlərin gözəl nəticələri vardır. Mən İran İslam Respublikasına rəsmi səfərimi məmnuniyyətlə xatırlayıram. Bu ilin aprel ayında qonşu ölkəyə səfər etmişəm. Sizinlə apardığım danışıqlar, keçirdiyimiz fikir mübadiləsi bir daha göstərir ki, bizim aramızda nə qədər səmimiyyət var, İran və Azərbaycan bir-birinə nə qədər yaxın və bağlıdırlar. Sizin bugünkü səfəriniz bizim əlaqələrimizə yeni təkan verəcəkdir. Bu gün imzalanan sənədlər, aparılan fikir mübadiləsi, sabah keçiriləcək biznes forum, əlbəttə ki, əlaqələrimizin inkişafına xidmət göstərəcəkdir. Bizim əlaqələrimizin təməlində xalqlarımızın dostluğu, qardaşlığı dayanır. Əsrlər boyu bizim xalqlarımız bir-biri ilə sıx əlaqədə olmuşlar, bir yerdə yaşamış, yaratmışlar. Bu, möhkəm təməldir. Bu təməl üzərində ikitərəfli dövlətlərarası əlaqələr qurulur. Son aylar ərzində bu əlaqələr yeni pilləyə qalxmışdır. Bizim çox gözəl siyasi əlaqələrimiz vardır. Mütəmadi təmaslarımız, yüksək vəzifəli şəxslərin qarşılıqlı səfərləri, beynəlxalq təşkilatlarda bir-birimizə göstərilən dəstək siyasi əlaqələrimizin yüksək səviyyədə olmasını əyani şəkildə sübut edir. Biz üzv olduğumuz beynəlxalq təşkilatlarda bir-birimizi daim dəstəkləyirik və bütün məsələlərdə bir-birimizin yanındayıq. Ölkələrimiz üçün ən vacib və həssas məsələlərdə də biz qarşılıqlı dəstək göstəririk. BMT-də, İslam Əməkdaşlıq Təşkilatında və digər təşkilatlarda biz həmişə bir-birimizin yanındayıq, bir-birimizi dəstəkləyirik. Azərbaycan üçün ən vacib problem olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində də biz İranın dəstəyini həmişə hiss edirik. İranın mövqeyi beynəlxalq hüquqa və ədalətə söykənir. Bildiyiniz kimi, bu münaqişə uzun illərdir ki, öz həllini tapmır. Azərbaycanın tarixi, əzəli torpağı Dağlıq Qarabağ və yeddi ətraf rayonu erməni silahlı qüvvələrinin işğalı altındadır. Beynəlxalq hüquq normaları kobudcasına pozulur. Münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurası - dünyanın ən ali orqanı dörd qətnamə qəbul etmişdir ki, o qətnamələrdə erməni silahlı qüvvələrinin işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxarılması tələb olunur. Əfsuslar olsun ki, Ermənistan bu qətnamələrə məhəl qoymur. İşğal edilmiş torpaqlarda hər şey dağıdılıb, tarixi abidələrimiz dağıdılıb. Əcdadlarımızın qəbirləri, məscidlərimiz erməni quldur dəstələri tərəfindən dağıdılıbdır. ATƏT-in faktaraşdırıcı missiyaları işğal edilmiş torpaqlara iki dəfə səfər etmiş və öz məruzələrində bunu təsdiqləmişlər. Münaqişə nəticəsində 1 milyondan artıq azərbaycanlı öz doğma torpağında qaçqın, köçkün həyatı yaşayır. Torpaqlarımızın 20 faizi işğal altındadır. Bizə qarşı etnik təmizləmə siyasəti aparılmışdır. Ermənilər azərbaycanlılara qarşı Xocalı soyqırımını törətmişlər. Münaqişənin ərazi bütövlüyü çərçivəsində həll edilməsi, əlbəttə ki, bölgəyə sülh gətirəcək. Bu münaqişənin başqa həll yolu yoxdur. Ədalət, beynəlxalq hüquq bərpa edilməlidir. Azərbaycan öz ərazi bütövlüyünü bərpa etməlidir. Biz digər beynəlxalq məsələlərlə bağlı daim təmasdayıq, bir-birimizi dəstəkləyirik. Əminəm ki, beynəlxalq təşkilatlardakı fəaliyyətimiz bundan sonra da bu əsaslarda qurulacaqdır. İqtisadi sahədə gözəl imkanlar var. Hökumətlərarası birgə komissiya fəal işləyir və gözəl nəticələr vardır. Biz bu gün energetika sahəsində əməkdaşlığı müzakirə etdik. Neft-qaz, elektrik enerjisi, qaz mübadiləsi sahələrində çox böyük imkanlar var. Artıq bir neçə layihə icra edilib. Yeni layihələrin icra edilməsi də gözlənilir. Eyni zamanda, biz bu gün nəqliyyatla bağlı məsələləri geniş müzakirə etdik. Şimal-Cənub nəqliyyat dəhlizinin yaradılması hər iki tərəfin marağındadır. Biz bu önəmli layihənin həyata keçirilməsində fəal iştirak edirik, öz səylərimizi qoyuruq. Şimal-Cənub nəqliyyat dəhlizi nəinki İran və Azərbaycan, bütün bölgə üçün önəmlidir. Ümumiyyətlə, demək istəyirəm ki, bizim siyasi, iqtisadi əlaqələrimiz, konkret layihələrin icrası, eyni zamanda, bölgədə sabitliyin möhkəmlənməsinə xidmət göstərəcək və göstərir. Əfsuslar olsun ki, bizim regionda vəziyyət kifayət qədər gərgindir. Qanlı toqquşmalar, müharibələr baş verir, sabitlik pozulur. İran-Azərbaycan dostluğu, tərəfdaşlığı burada bir sabitləşdirici amildir. Biz sabitləşdirici addımlarla bölgədə sülhü qoruyuruq, müdafiə edirik. Əminəm ki, bizim birgə səylərimiz nəticəsində gələcəkdə bölgədə sabitlik bərpa ediləcək. Çünki sabitlik olmadan heç bir ölkə inkişaf edə bilməz, o ölkəyə xarici sərmayə yatırılmaz, ümumiyyətlə, iqtisadi inkişafdan söhbət gedə bilməz. Biz öz səylərimizlə regional əməkdaşlığa da töhfəmizi veririk. Həştərxan şəhərində keçirilmiş Xəzər zirvəsi də çox uğurlu zirvə idi, gözəl nəticələr olmuşdur, vacib qərarlar qəbul edilmişdir. Bu da bizim beynəlxalq məsələlərə olan münasibətimizdir. Biz bütün başqa sahələrdə inamla irəliləyirik. Əlbəttə ki, humanitar sahədə çox gözəl əməkdaşlıq var, bu da təbiidir. Çünki əsrlər boyu bizim xalqlarımız bir yerdə olmuşlar, yaşamışlar, yaratmışlar. Bizim ortaq tariximiz, mədəniyyətimiz dünya üçün çox böyük əhəmiyyət kəsb edir. Ona görə, hörmətli cənab Prezident, Sizin səfəriniz çərçivəsində bütün bu məsələlərin müzakirə edilməsi, konkret tapşırıqların verilməsi, əlbəttə ki, gələcəkdə bizim tərəfdaşlığımızı daha da möhkəmlədəcəkdir. Biz konkret layihələr üzərində işləyirik. İnfrastruktur layihələrinin icrası, bank sektorundakı əməkdaşlıq və digər layihələr nəzərdən keçirilir. Sabah keçiriləcək biznes forum isə iş adamlarını bir yerə yığacaq. Buna da çox böyük ehtiyac var. Çünki iş adamları görürlər ki, harada siyasi əlaqələr yüksək səviyyədədir, onlar o ölkələrlə daha da sıx əməkdaşlıq edirlər. Beləliklə, bizim əlaqələrimiz möhkəmdir. İran-Azərbaycan dostluğu sarsılmazdır, heç bir kənar qüvvə bizim aramıza girə bilməz. Bizim birliyimiz ölkələrimizin və bölgənin gələcəyi üçün lazımdır. Hörmətli cənab Prezident, Sizin səfərinizə çox böyük əhəmiyyət verərək, Azərbaycanda Sizi bir daha səmimiyyətlə salamlayıram.

## Prezident Həsən Ruhaninin bəyanatı

- Mən bu gün çox xoşhalam ki, Xəzər dənizinin sahilində yerləşən gözəl Bakı şəhərində öz qardaş xalqımın, azərbaycanlı qardaşlarımın yanındayam. Cənab Prezident İlham Əliyevin Tehrana səfəri ölkələrimiz arasında əlaqələrin inkişaf etdirilməsi baxımından çox mühüm əhəmiyyət kəsb etdi. Bizim bu gün dostlarımızla keçdiyimiz yol ölkələrimiz arasındakı inkişaf yoludur. Bu səfər də həmin inkişaf yolunun təkmilləşdirilməsinə öz töhfəsini verəcək və bunu daha da sürətləndirəcəkdir. Əgər desək ki, Azərbaycan və İran xalqları bir bədəndə bir ruhdur, səhv etmərik. Bu insanların yaşayışının əsas mühüm hissələrindən biri mədəniyyətdirsə, deyə bilərik ki, bu iki ölkə, bu iki xalq birdir, həm məzhəbi, həm dini birdir, müştərək tarixə, keçmiş tarixə malikdirlər və bir-birinin mədəniyyətinə bələddirlər, bir-birini çox yaxşı başa düşürlər. Həm yaşayış tərzimizdə, həm davranışımızda olan bu müştərəklik əlaqələrimizin, iki millətin əlaqələrinin inkişaf etdirilməsinə imkan yaradır və bundan istifadə etməliyik. Heç şübhəsiz ki, ölkələrimizin və xalqlarımızın əlaqələrinin yaxınlaşması, bizim əlaqələrimizin yaxınlaşması heç bir üçüncü ölkənin əleyhinə deyil. Biz əlaqələrimizi inkişaf etdirməklə öz mənafeyimizə, öz sabitliyimizə, öz təhlükəsizliyimizə, daha sürətli inkişafımıza çalışırıq. Ölkələrin inkişafı bir-birinin iqtisadi inkişafına öz töhfəsini vermiş olar. Bu gün biz müfəssəl danışıqlar, müzakirələr apardıq. Həm geniş tərkibdə, həm də təkbətək görüşlərdə belə bir razılığa gəldik ki, əlaqələrimizi daha da inkişaf etdirək, bunu daha açıq, daha şəffaf şəkildə həyata keçirək. Araz çayı gərək bizim birliyimizi daha da möhkəmləndirsin. Biz o Arazı qəbul edirik ki, iki dövləti, iki xalqı bir-birinə birləşdirir. Biz o Arazı qəbul edirik ki, bu, hər iki ölkənin inkişafının çiçəklənməsinə töhfə vermiş olur. Biz çalışmalıyıq ki, biznesmenlərimiz, iş adamlarımız bir-birinə daha yaxın olsunlar və bir-birinin imkanlarından, hər iki ölkənin imkanlarından istifadə edib faydalansınlar. Biz enerji, ticarət, sənaye sahələrində, həm bəndlərin, həm elektrik stansiyalarının tikilməsində və buraya yeni texnologiyaların gətirilməsində, elm və tədqiqat mərkəzlərində bir-birimizlə əlaqə yaratmalı və bir-birimizin inkişafına töhfəmizi verməliyik. Biz istəyirik ki, din, məzhəb və adət-ənənələrimizdən, - hansı ki, biz bu məsələlərdə birlik təşkil edirik, - daha da səmərəli istifadə edək. Azərbaycan Respublikası, o cümlədən İran elə bir coğrafi mövqedə yerləşir ki, onlar bir-biri üçün keçid-körpü ola bilər və biz Oman dənizindən, Hind okeanından tutmuş Asiyadan Avropaya qədər körpülərimizi birləşdirə bilərik. Biz Azərbaycan və Qafqaz vasitəsilə Avropa ilə birləşə bilərik. Azərbaycan da İran vasitəsilə cənub dənizləri ilə, okeanlarla birləşmiş olar. Biz gərək bu dəhlizdən çox yaxşı istifadə edək, bundan faydalanaq və bunu daha da genişləndirək və çalışaq ki, bir-birimizə kömək etməklə Qəzvin-Rəşt və Rəşt-Astara dəmir yolunun tikintisinə və birləşməsinə nail olaq. Biz bu dəhliz vasitəsilə Qara dənizə və Avropaya, Rusiyaya çıxaq, onların dəmir yolu sisteminə birləşək. Biz bu sahədə əməkdaşlıq etməliyik. Bizim ölkələrimiz gözəl Xəzər dənizinin sahilində yerləşir. Bu dənizdən istifadədə hər iki ölkə yaxşı addımlar atmışdır. Bu dəniz dostluq, inkişaf dənizidir. Bu dəniz hər iki millətin inkişafına öz töhfəsini verən dənizdir. O millətlər ki, uzun illər, əsrlər boyu bu dənizin sahilində yaşamışlar və bu dənizin Allahın verdiyi nemətlərindən istifadə etmişlər. Həm balıqçılıqda, həm ekologiya sahəsində, həm də dənizin mənbələrindən istifadədə əməkdaşlıq edə bilərik. Turizm sahəsində də geniş əməkdaşlıq imkanlarımız var. Biz istəyirik ki, İran vətəndaşları Azərbaycana, Azərbaycan vətəndaşları isə İrana çox asanlıqla, rahatlıqla səfər etsinlər. Biz buna hər iki millətin, hər iki ölkənin mənafeyinə və təhlükəsizliyinə xidmət göstərən bir amil kimi yanaşırıq. Hər iki ölkənin potensialından istifadə etməliyik və bununla əlaqədar razılaşmalar əldə olunmalıdır. Sərhəd məsələlərində də əməkdaşlığı daha da genişləndirməliyik. Narkotiklərə, qaçaqmalçılığa qarşı mübarizədə əlaqələri möhkəmləndirməliyik. Biz Qarabağın bugünkü vəziyyətini bəyənmirik. Biz istəyirik ki, bu bölgədə ədalət olsun. Biz istəyirik ki, bu bölgədə sülh, sabitlik, dostluq olsun. Biz bütün ölkələr arasında dostluğun, təhlükəsizliyin, sabitliyin, ədalətin bərqərar olması üçün əlimizdən gələni etməyə, öz tərəfimizdən lazımi addımı atmağa hazırıq. Biz bunu beynəlxalq təşkilatlar çərçivəsində, hər yerdə öz vəzifəmiz hesab edirik və buna hazırıq. Biz bilirik ki, Qarabağ məsələsi siyasi yolla həll olunmalıdır. Bu, müharibə yolu ilə həll olunası məsələ deyil. Ona görə də bu istiqamətdə bütün köməyimizi göstərməyi öz vəzifəmiz hesab edirik və bunu etməyə hazırıq. Biz Yaxın Şərqdə, Afrikanın şimalında baş verən böhranla, hadisələrlə əlaqədar müzakirələr, fikir mübadiləsi apardıq. İndi çox böyük bir böhran ətəyimizdən yapışıb. Bu, separatizm, terrorizm, radikalizmdir. Biz istəyirik ki, bunlar bizim bölgədən kənarda olsun və bizim ölkələrdə sabitliyə, sülhə maneə yaratmasın. Biz iki prezident təkbətək görüşdə bir-birimizə bildirdik ki, heç bir kənar qüvvələrin bizim əlaqələrimizə ixtilaf salmasına və heç bir qruplaşmanın, heç bir partiyanın, heç bir ittifaqın əlaqələrimizin inkişafına xələl gətirməsinə imkan verməyək. Bizim yolumuz dostluq, qardaşlıq, birlikdir. Biz Azərbaycanı bütün beynəlxalq təşkilatlarda, BMT-də, İslam Əməkdaşlıq Təşkilatında, ECO-da və digər təşkilatlarda həmişə müdafiə etmişik, dəstəkləmişik. Azərbaycan da uranın sülh məqsədləri üçün zənginləşdirilməsində, nüvə məsələsində İrana dəstək verib. Biz bununla əlaqədar təşəkkürümüzü bildiririk. İnkişaf etmiş və inkişaf etməkdə olan bütün ölkələrin haqqı çatır ki, bu sülhməramlı proqramdan istifadə etsinlər. Onların yeni texnologiyanın əldə edilməsində, yeni texnologiyaya nail olmaqda haqları var və bundan istifadə etməlidirlər. Biz inanırıq ki, bugünkü paslanmış silahlar, yəni, bu sanksiyalar öz rolunu oynamayacaq, öz təsirini göstərməyəcək. Bu, keçmişdə qalmış formalardır. İran ilə Azərbaycan dost ölkələrdir və dost ölkələr olaraq qalacaqlar. Bu ölkələrin, bu xalqların inkişafı üçün çalışmışıq və çalışacağıq.

**AzərTAc-ın materialları əsasında**

## Ermənistan danışıqlar prosesini pozmaq üçün növbəti dəfə təxribat törədib

Son zamanlar ATƏT-in Minsk qrupu çərçivəsində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı yüksək səviyyəli danışıqlar intensivləşib. Həmsədrlərin dəstəyi ilə Azərbaycan və Ermənistan Prezidentləri, habelə hər iki ölkənin xarici işlər nazirləri problemin nizamlanmasına dair prinsipial məsələləri müzakirə edib, həmçinin qoşunların təmas xəttində sabitliyin qorunması, atəşkəs rejiminin təmin edilməsi, snayperlərin geri çəkilməsi, müxtəlif təxribatlara yol verilməməsi və digər bu kimi məsələlərə dair müəyyən razılığa gəliblər. Təəssüf ki, Ermənistan tərəfi Paris görüşünün nəticəsi olaraq, Böyük sülh sazişinin layihəsi üzərində işə başlamaq üçün konkret addımlar atmaq əvəzinə, çoxsaylı hərbi qüvvə və müxtəlif növ texnika ilə işğal olunmuş ərazilərdə, o cümlədən qoşunların təmas xəttində hərbi təlimlərə başlayıb. Həmçinin, noyabrın 12-də cəbhənin Ağdam rayonu istiqamətində Ermənistan Respublikasının hərbi hava qüvvələrinə məxsus döyüş cütlüyündən ibarət Mi-24 tipli helikopterlər müdafiənin ön xəttində yerləşən Azərbaycan Silahlı Qüvvələrinin mövqelərinə hücum edərək atəşə tutub və uzaqlaşmağa çalışıb. Cavab atəşi ilə düşmənin döyüş cütlüyündən ibarət helikopterlərindən biri vurulub, digəri isə atəş zonasını tərk edib. Göründüyü kimi, Ermənistan rəhbərliyi dünya təcrübəsində mövcud olan bütün normalara zidd davranış nümayiş etdirib, danışıqlar prosesini pozmaq məqsədilə növbəti dəfə təxribat törətməyə çalışıb. Hazırda Ermənistan və erməni lobbisi həm də informasiya təxribatına keçərək baş vermiş hadisənin məsuliyyətini Azərbaycanın üzərinə yıxmağa çalışır. Ancaq hazırkı gərginlik Ermənistanın işğalçılıq siyasətinin, danışıqlar prosesini yenidən pozmaq cəhdinin məntiqi nəticəsidir və mövcud vəziyyətə görə məhz Ermənistan rəhbərliyi birbaşa məsuliyyət daşıyır.

**AzərTAc**

## BAK sədri belçikalı senatora Dağlıq Qarabağ münaqişəsindən danışıb

Benilüks Azərbaycanlıları Konqresinin sədri Sahil Qasımov Belçika Senatında İslahatçılar Hərəkatı Partiyasının üzvü, senator xanım Dominik Tilmansia ilə görüşüb. S.Qasımov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə senatora ətraflı məlumat verib. Bildirib ki, dövlətimizin xeyirxah və mehriban qonşuluq siyasəti yürütməsinə baxmayaraq, "dənizdən dənizə böyük imperiya" yaratmaq xülyasına düşən Ermənistan Azərbaycana qarşı elan olunmayan müharibəyə başlayıb. Dünya ictimaiyyətini aldatmağa cəhd göstərən rəsmi Yerevan öz məqsədinə çatmaq üçün Azərbaycanın əzəli torpağı olan Dağlıq Qarabağda yaşayan ermənilərdən istifadə edir və onların "hüquqlarını müdafiə etmək" adı altında nəinki Dağlıq Qarabağı, hətta ona bitişik yeddi rayonumuzu işğal edib, bir milyondan artıq azərbaycanlını doğma ata-baba yurdlarından didərgin salıb. Azərbaycanlılara qarşı etnik siyasət aparan ermənilər XX əsrdə görünməmiş qətliam - Xocalı soyqırımını törədib. Amma təəssüf ki, Avropa ölkələri, o cümlədən Belçika Krallığı bu qanlı faciəyə siyasi qiymət verməyib. S.Qasımov münaqişənin nəinki Cənubi Qafqazın, habelə Avropanın təhlükəsizliyi üçün ciddi təhlükə mənbəyi olduğunu xüsusi vurğulayıb.

Senator Dominik Tilmans bu həqiqətləri partiya yoldaşlarına çatdıracağını bildirib və rəhbəri olduğu "Avro Space" layihəsi barədə ətraflı məlumat verib. Layihədə əsasən peyk sahəsində Azərbaycanla əməkdaşlıq nəzərdə tutulub.

**AzərTAc**

## “Vətənim üçün canımdan keçməyə hazıram”

Bu günlərdə Türkiyə Respublikasının paytaxtı Ankara şəhərinin Atatürk Egitim və Araşdırma Xəstəxanasında müalicəsi başa çatan Azərbaycan Ordusunun əsgəri kiçik çavuş Əsgərov Elvin Mail oğlu Bakıya gətirilib.

Hazırda Elvin Əsgərov Silahlı Qüvvələrin Baş Klinik Hospitalında müalicəsini davam etdirir. Yaralı əsgərimizlə müalicə aldığı şöbədə görüşüb, hazırkı durumu ilə maraqlandıq. O, vəziyyəti ilə bağlı bunları söylədi: "Türkiyədə müalicə aldıqdan sonra özümü yaxşı hiss edirəm. Müalicəmin sonrakı mərhələsini, yəni, müayinələrimi Bakıda davam etdirəcəyəm".

E.Əsgərov fürsətdən istifadə edərək, qəzetimiz vasitəsi ilə ona göstərilən yüksək diqqət və qayğıya görə hər kəsə, xüsusilə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevə, Müdafiə naziri general-polkovnik Zakir Həsənova öz dərin minnətdarlığını ifadə etdi.

Qeyd edək ki, Ermənistan qoşunlarının təmas xəttində düşmənin diversiya-təxribat hücumlarının qarşısını alarkən yaralanmış əsgərlər Ədalət Məmmədov, Elvin Əsgərov və Sərxan Tahirzadə müalicə üçün Türkiyəyə yola salınmışdı. Qardaş ölkədə müalicəsini başa vurmuş Elvin Əsgərovu Heydər Əliyev adına Beynəlxalq Hava Limanında Türkiyənin Azərbaycandakı səfiri Alper Coşkun, Müdafiə Nazirliyinin nümayəndələri və əsgərin yaxınları qarşılayıb.

Yaralı əsgərimizi Türkiyədə xəstəxanada müalicə alarkən Türkiyə dövlət rəhbərləri - hazırkı Baş nazir Əhməd Davudoğlu, Böyük Millət Məclisinin sədri Cəmil Çiçək, Azərbaycanın Ankaradakı konsulluğunun nümayəndələri və digər şəxslər ziyarət etmişdilər.

E.Əsgərov bizimlə söhbətində qürurla dedi: "Mən Vətənimin yolunda, torpaqlarımız uğrunda yaralanmışam. Mən Vətənim üçün canımdan keçməyə hazıram".

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

# Azərbaycan Respublikasının Müdafiə naziri Türkiyənin Jandarma Baş Komandanını qəbul edib




***Noyabrın 14-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov işçi səfərilə ölkəmizdə olan Türkiyə Respublikasının Jandarma Baş Komandanı ordu generalı Abdullah Atayı qəbul edib.***

Müdafiə naziri general-polkovnik Zakir Həsənov qonağı salamlayaraq Azərbaycanla Türkiyə arasında hərbi sahədə əməkdaşlığın daim yüksələn xətt üzrə artdığını, strateji tərəfdaşlıq və qardaşlıq münasibətləri əsasında qurulduğunu və əlaqələrin davamlı olduğunu qeyd edib.

Müdafiə naziri bölgədəki hərbi-siyasi vəziyyətə toxunaraq Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin regional sabitliyə əsas təhlükə yaratdığını, problemin beynəlxalq hüquq norma və qaydalarına uyğun həllinə nail olunmasının vacibliyini vurğulayıb.

Ordu generalı Abdullah Atay da öz növbəsində səmimi qəbul üçün təşəkkürünü bildirərək, dövlətlərimizin əlaqələrinin qədim tarixi köklərə, mehriban dostluq, qardaşlıq münasibətlərinə əsaslandığını və Türkiyənin Azərbaycanın vacib tərəfdaşı olduğunu qeyd edib.

Görüşdə Türkiyə Respublikasının Azərbaycandakı hərbi attaşesi Hasan Nevzat Taşdeler iştirak edib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

## Almaniya XİN: Dağlıq Qarabağ beynəlxalq hüquq baxımından Azərbaycanın ayrılmaz tərkib hissəsidir

Dağlıq Qarabağ beynəlxalq hüquq baxımından Azərbaycanın ayrılmaz tərkib hissəsidir, lakin erməni silahlı qüvvələrinin nəzarətindədir. Bunu Almaniyanın Xarici İşlər Nazirliyi Bundestaqın "Solçular" fraksiyasının cəbhə xəttində atəşkəsin pozulması hallarının intensivləşməsi ilə əlaqədar AFR hökumətinə ünvanlandığı sorğuya cavabında bildirib. Bundestaqın saytında yerləşdirilmiş məlumata görə, cavab məktubunda, həmçinin, təmas xəttində atəşkəsin iyulun sonu, avqustun əvvəlində daha da kəskinləşdiyi, sonradan əvvəlki illərin vəziyyətinə qayıtdığı diqqətə çatdırılıb.

# Hərbi Dəniz Qüvvələrinin Hərbi Hava Qüvvələri ilə birgə irimiqyaslı əməliyyat-taktiki təlimləri başlayıb





***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin təsdiq etdiyi plana əsasən, noyabrın 13-də başlanan irimiqyaslı birgə təlimlərin ilkin mərhələsini izləmək üçün Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin rəhbərliyi Hərbi Dəniz Qüvvələrində olub.***

Hərbi Dəniz Qüvvələri komandanı vəzifələrini icra edən 1-ci dərəcəli kapitan Şahin Məmmədov nazirliyin rəhbərliyini qarşılayaraq təlimlərin ssenarisinə əsasən keçiriləcək mərhələlər, görülən işlər haqqında məruzə edib.

Müdafiə naziri təlimlərə cəlb edilən gəmilərin şəxsi heyəti ilə görüşüb, hazırlıqla bağlı görülən işlərin səviyyəsi ilə maraqlanıb, hərbi gəmilərə, texnika və silahlara baxış keçirib, eyni zamanda təlimlərin ssenarisinə uyğun tapşırıqların yerinə yetirilməsini izləyib.



Şəxsi heyət qarşısında çıxış edən Müdafiə naziri Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən qarşıya qoyulan tapşırıqların uğurla yerinə yetirilməsi üçün hərbi qulluqçuların üzərinə düşən vəzifələrdən danışaraq təlim iştirakçılarına uğurlar arzulayıb.

Sonda gəmilər açıq dənizə çıxış tapşırıqlarını icra ediblər.

Təlimlərə Hərbi Dəniz Qüvvələrinin tam heyəti, Hərbi Hava Qüvvələri və Hava Hücumundan Müdafiə Qoşunlarının hissə və bölmələri, həmçinin Fövqəladə Hallar Nazirliyinin və Dövlət Sərhəd Xidmətinin müvafiq gəmiləri cəlb edilib.

Üç mərhələdə həyata keçiriləcək təlimlər noyabrın 17-dək davam edəcək.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti, fotolar Vüsal HƏMİDOVUNDUR**

*Ön xətdən reportaj*

# El bir olsa, basılmaz Vətən!

Düşmənlə təmas xəttindəki hərbi hissənin ərazisindəyik. Növbətçi komandirə məruzə etdikdən az sonra bizi hərbi hissənin zabiti Ədalət Hacıyev qəbul edir. Məqsədimizin ön xətdə xidmət edən hərbçilərimizlə görüşüb söhbət aparmaq olduğunu biləndə - mən həmişə peşə borcларına məsuliyyətlə yanaşan jurnalistləri alqışlamışam, - deyə zabit bildirir. - Avqust hadisələrində cəbhə xəttində yaranan gərginliklə bağlı bəzi KİV nümayəndələrinin bizim bölgə barədə yaydığı qeyri-dəqiq məlumatlar bizdə narahatlıq doğurdu. Ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin 24 sentyabr 2014-cü il tarixli "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ermənistan Respublikası Silahlı Qüvvələri ilə təmas xəttində bəzi təhlükəsizlik tədbirləri haqqında" imzaladığı sərəncamı müharibə şəraitində informasiya təhlükəsizliyinin qorunması məsələsinin hüquq müstəvisində həyata keçirilməsini bir daha önə çəkdi. Cəbhə xəttində baş verən hadisələrlə bağlı informasiyaların verilməsində məsuliyyətsiz yanaşmalar çox olur, bu da düşmənlə üzbəüz dayanan hərbçilərin xidmətinə təhlükə yaradır. Qəti əminik ki, ölkə Prezidentinin bu sərəncamı ilə düşmənlə təmas xəttində informasiya təhlükəsizliyinə tam təminat yaranacaq.

Şəxsi heyətlə iş üzrə bölmə rəisinin müavini mayor Səməd Məmmədov isə "tələsməliyik, vaxt itirmədən yola düşməliyik, hava da tutulub, deyəsən, yağış yağacaq. Əgər yağış güclənərsə, səngərə getmək çətin olacaq", - deyə söhbətimizə qoşulur.

Amma nə qədər çətin olsa da, səngərə mütləq getməliyik. Gecə-gündüz, yayın qızmarında, qışın sazağında Vətənimizin keşiyini çəkən hərbçilərimizlə görüşməliyik. Onların söhbətlərini, arzularını dinləyib qələmə almaq təkcə peşə borcumuz yox, həm də öncə vətəndaşlıq, mənəvi borcumuzdur. Çünki onlar üzərində gəzdiyimiz, havasını udduğumuz ana torpağın hər an düşmənlə döyüşə hazır olan müdafiəçiləridirlər.

Havanın tutqun olmasına baxmayaraq, hərdən günəş özünü göstərir. Yəqin bu yerlərin təbiəti payız fəslində belə olur - dumanlı-çiskinli, təkəm-seyrək yağış damcıları, tutulub-açılan hava. Yayda gördüyümüz yaşıllıqdan da əsər-əlamət qalmamışdı. Payızın özünəməxsusluğu buralarda apaydın hiss olunurdu.



Bağça-bağlarda ağacların saralmış yarpaqları yerlə biriydi. Öz şəxsi təsərrüfatlarında çalışan kənd camaatı uzaqdan tək-tək, ayrı-ayrı yerlərdə görünürdü. Onların belə vəziyyətdə işləməyinin səbəbi kəndin düşmənlə çox yaxın məsafədə yerləşməsidir. İnsanlar təhlükəli vəziyyətə baxmayaraq, öz dədə-baba torpaqlarında yaşayır, işləyir, ev-eşik tikir, ermənilərin ərazilərimizdən qovulacağı günü səbirsizliklə gözləyirlər.

Asfalt örtüklü, dümdüz kənd yolları diqqətimizi çəkir. Zabit S.Məmmədov bildirir ki, cəbhə xəttində yerləşən kəndlərdə qaz, su, işıq problemi yoxdur. Bu ərazilərdə yaşayan əhali yüksək məişət şəraiti ilə təmin olunub.

Bölükləri düşmənlə lap yaxın məsafədə yerləşən taborun ərazisinə daxil oluruq. Bizi zabit Elman Nəzərov qarşılayır. Öyrənirik ki, onun atası ehtiyatda olan polkovnik-leytenant Əlihüseyn Nəzərov uzun illər Hərbi Hava Qüvvələrində xidmət edib. Zabit artıq 10 ildir ki, xidmətini səngərdə - ön xətdə aparır. Ən gənc tabor komandiridir. O deyir ki, hərbçi peşəsi şərəflidir. "Bu peşənin sahibi olmaqdan qürur duyuram. Hərbçi - Vətənini, torpağını, xalqını, dövlətini, işini sevməlidir. Hərbi formanı əyninə geyinən hər bir əsgər, gizir, zabit onun məsuliyyətini dərindən dərk etməlidir".

Bizimlə söhbətində avqust hadisələrinə toxunan zabit bir daha vurğuladı ki, ermənilərin hücumlarına qarşı keçirilən hərbi əməliyyatlar ordumuzun döyüş qabiliyyətini nümayiş etdirməklə yanaşı, həm də hərbçilərimiz üçün böyük təcrübə oldu.

Yaxın məsafədən erməni qəsbkarlarının 21 ildən artıq işğal altında saxladığı ərazilərimiz, doğma Vətən torpaqları görünür. Sanki əsir olan torpaq canlı varlıq kimi haray salıb bizi səsləyir.

Səngərə yaxın məsafədə təsərrüfatlarında çalışan kənd sakinlərinə yaxınlaşıb soruşuruq: - Güllə altında, belə təhlükəli vəziyyətdə işləyirsiniz. Bu sizi qorxutmurmu?

Adının çəkilməsinə ehtiyac bilməyən sakin kapitan Əmirovu, səngəri göstərir, - Bax, orada gecə-gündüz keşik çəkən hərbçilərimizə arxayınıq, ordumuza güvənirik. Biz öz torpağımızda əkin-biçinimizlə məşğuluq. Qoy, ermənilər qorxsunlar ki, özgənin torpağını zəbt ediblər. Gec-tez onlar işğal etdikləri torpaqlarımızdan qovulacaqlar. Sağ olun, Allah amanında, - deyərək bizdən uzaqlaşır.

Yayda gördüyümüz toz-duman elə bil yoxa çıxmışdı. Yağış yağdığından səliqə-sahman yaranmışdı. Bir insan boyundan da hündür müdafiə istehkam qurğusuna - səngərə daxil oluruq. Səngər boyu irəlilədikcə zabit İntiqam Əmirov söhbətimizi yayda cəbhədə yaşanan hadisələrə yönəldir. O, keçdiyimiz səngərin yüksəkliyini göstərib dedi ki, baxın, o istiqamətdən düşmənin qəfil hücumu ilə ağır döyüşlər başladı. "Döyüş təcrübəsinə malik əsgər və zabitlərimiz erməni faşistlərinin qəfil həmlələrini qəhrəmanlıqla dəf edə bildilər. Bu gün əsgərlərimizdə döyüş ruhu yüksəkdir. Ölkə Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı cənab İlham Əliyevin və Müdafiə naziri general-polkovnik Zakir Həsənovun cəbhə bölgəsinə səfərləri, hərbçilərlə görüşləri bizi xidmətimizdə yeni nailiyyətlərə ruhlandırır.

Manqa komandiri kiçik çavuş Natiq Qardaşov 2 il 10 aydır ki, müddətdən artıq xidmət edən hərbi qulluqçudur.

- Sabirabad rayonundanam, - deyir Natiq. - Hərbi peşəyə böyük marağım var. Əsgəri xidmətimi başa vurduqdan sonra yenidən hərbi xidmətə qayıtmağa qərar verdim. Düşmən bu ərazilərdə atəşkəsi tez-tez pozur. Bu ərazilər ayıq-sayıq əsgərlərimizin və peşəkar zabitlərimizin sayəsində müdafiə olunur. Bizi bu səngərdə dostluq, qardaşlıq, Vətənə, torpağa bağlılıq, düşmənə nifrət birləşdirir. Biz öz həyatində təhlükə altında işləyən əliqabarlı, zəhmətkeş insanları gördükcə işğalçılara nifrətimiz daha da artır. Düşməni torpaqlarımızdan qovacağımız günü səbirsizliklə gözləyirik.

Döyüş növbəsi çəkən bir əsgərə yaxınlaşırıq. Camal Əhmədov Zaqatala rayonundan hərbi xidmətə çağırılıb. 1 ildir ki, Vətənə borcunu ləyaqətlə, vicdanla yerinə yetirir. O, bizimlə söhbətə əsgər yoldaşları ilə səngərdə yaranan dostluğundan başladı.

- İnsan insanı dar gündə tanıyır, - dedi. - Biz bilirik ki, səngərdə keçirdiyimiz günlər hər birimizin gələcək həyatında rol oynayacaq. Doğrudan da, əsgərlik həyatı kişilik, mərdlik, dostluq məktəbidir. Düşünəndə ki, biz müharibə şəraitində hərbi xidmət keçirik, bu zaman yoldaşlarımız şəhid olur, yaralanır, onda dərd-fikir içində keçirdiyimiz ağır, çətin günlər bizi birləşdirir, dostluğumuzu daha da möhkəmləndirir.

Müşahidə məntəqəsində döyüş növbəsi çəkən başqa bir əsgər də özünü təqdim edir: "Əsgər Davud Nağıyev, Xaçmaz rayonundan hərbi xidmətə çağırılmışam. 1 il 6 aydır ki, hərbi xidmətdəyəm. Biz bu səngərdə birləşərək düşmənimizi məhv etməyə, şəhid olan yoldaşlarımızın qisasını almağa hər an hazırıq. Bizdə bu birliyi yaradan, möhkəmlədən komandirlərimizin dəyərli tövsiyələridir".

Əsgərlərdən Rauf Ələkbərov, Baloğlan Verdiyev, Camal Muradov, Əbluc Rəsulzadə, Kamran Monqolov və başqaları Vətən qarşısında müqəddəs borclarını vicdanla yerinə yetirdiklərini bildirirlər.

**Lalə HÜSEYNOVA,**
**Ceyhun KAZIMOĞLU,**
**"Azərbaycan Ordusu"**

# Azərbaycanda akkreditə olunmuş xarici dövlətlərin hərbi attaşeləri düşmən helikopterinin vurulması ilə bağlı məlumatlandırılıb



***Noyabrın 13-də Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsində ölkəmizdə akkreditə olunmuş 13 ölkənin hərbi attaşesinin iştirakı ilə tədbir keçirilib.***

Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsinin rəisi general-mayor Hüseyn Mahmudov və Mətbuat Xidmətinin rəisi polkovnik Vaqif Dərgahlı Ermənistan-Azərbaycan qoşunlarının təmas xəttində düşmən helikopterinin vurulması ilə bağlı tədbir iştirakçılarına ətraflı məlumat veriblər.

Bildirilib ki, Azərbaycan tərəfinin dəfələrlə beynəlxalq qanunlar və Beynəlxalq Mülki Aviasiya Təşkilatının qərarlarına əsasən, işğal olunmuş ərazilər üzərində bütün aviauçuşlara qadağa qoyduğuna, bu ərazilərdə həyata keçirilən razılaşdırılmamış uçuşların ölkəmizin hava sərhədlərinin pozulması kimi qiymətləndiriləcəyi və hava sərhədlərimizi pozanlara qarşı Azərbaycan Respublikasının hərbi aviasiyası və hava hücumundan müdafiə sistemləri tərəfindən hədəflərin dərhal məhv ediləcəyi ilə bağlı xəbərdarlıqlarına baxmayaraq, Ermənistan silahlı qüvvələrinin helikopterləri müdafiənin ön xəttində yerləşən mövqelərimizə hücum ediblər.

Hərbi qulluqçularımızın sayıqlıq və igidliyi nəticəsində düşmənin Mi-24 tipli döyüş helikopteri "İQLA" daşınan zenit-raket kompleksi ilə məhv edilib. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Muradov İlkin Məmməd oğlu Müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmri ilə "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı ilə təltif edilib və qiymətli hədiyyə ilə mükafatlandırılıb.

Eyni zamanda vurğulanıb ki, helikopterin həlak olan ekipajı heç də qondarma Dağlıq Qarabağın deyil, Ermənistan Respublikasının Hərbi Hava Qüvvələrinin hərbi qulluqçularıdır.

Sonda tədbir iştirakçılarının sualları ətraflı cavablandırılıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Düşmən helikopterini məhv edən hərbi qulluqçu mükafatlandırılıb

***12 noyabr 2014-cü il.***

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu, manqa komandiri Muradov İlkin Məmməd oğlu hərbi xidmətdə sayıqlıq və igidlik göstərərək düşmənin Mi-24 tipli döyüş helikopterini vurduğuna görə Müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmri ilə "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı ilə təltif edilib və qiymətli hədiyyə ilə mükafatlandırılıb.

Müdafiə Nazirliyi əlavə olaraq bildirir ki, düşmənin döyüş cütlüyündən ibarət helikopterlərdən biri vurulub, digəri isə atəş zonasından yayınaraq uzaqlaşıb. İlkin məlumata görə, düşmənin məhv edilmiş helikopterində olan 3 hərbi qulluqçusu həlak olub.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozmuşlar

***13 noyabr 2014-cü il.***

Müdafiə Nazirliyi bildirir ki, cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimi ümumilikdə 56 dəfə pozulub.

Erməni silahlı bölmələri Ermənistan Respublikasının Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimizi atəşə tutublar.

Tərtər rayonunun Çiləbürt, Göyarx, Ağdam rayonunun Yusifcanlı, Mərzili, Sarıcalı, Kəngərli, Şıxlar, Füzuli rayonunun Horadiz, Aşağı Veysəlli, Xocavənd rayonunun Kuropatkino kəndləri yaxınlığında, həmçinin Göygöl, Xocavənd, Füzuli və Cəbrayıl rayonlarının ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub.

*Qabaqcıl təcrübə*

# Onlar silahdaşlarına örnəkdirlər

**_Qərargahın qarşısında döyüşçülər Şərəf lövhəsinə vurulmuş şəkillərin yenilənməsilə məşğul idilər. Ən gözəgəlimli yerdən asılmış stenddə başqalarına örnək gətirilə biləcək hərbi qulluqçuların şəkilləri yer alırdı. Doğrusu, başqa hərbi hissələrdə Şərəf lövhəsinə rast gəlsəm də, bu dəfə maraq hər şeyi üstələdi və digər hərbi hissələrə də qabaqcıl təcrübə kimi örnək göstərilə biləcək bu faktla bağlı qeydlər aparmaq qərarına gəldim._**

- Hərbi hissədə nümunəvi xidmət edən, nizam-intizamlı, döyüş və ictimai-siyasi hazırlıq prosesində fərqlənmiş, verilən tapşırıqları və əmrləri müvəffəqiyyətlə yerinə yetirmiş hərbi qulluqçuların şəkilləri Şərəf lövhəsinə vurulur, - bizimlə söhbətində mayor Vüqar Aydınov bildirdi. - Bu, komandanlıq tərəfindən bir növ fərqləndirmə, mükafatlandırma xarakteri daşıyır. Hərbi hissə komandirinin əmrinə əsasən, Şərəf lövhəsinə ən nümunəvi hərbi qulluqçuların şəkilləri çəkilərək stendə yapışdırılır. Onlar həm xidmətdə, həm də davranışda öz silahdaşlarına örnək göstərilirlər.

Hazırda hərbi hissənin qazandığı uğurlarda öz dəst-xətti olan Eldəniz Teymurov, Cəlal Mustafayev, Rauf Şirinov, Vasif Həmzəyev kimi zabitlərin şəkilləri Şərəf lövhəsini bəzəyir. Bu zabitlərin komandiri olduğu bölmələr həmişə döyüş hazırlığı, hərbi intizamı ilə seçilib və digər bölmələrə də nümunə olub.

Onu da qeyd edim ki, zabit Mustafayevlə ordumuzun başqa bir hərbi hissəsində hələ bir neçə il öncə rastlaşmışdım. O zaman Cəlal Mustafayev batareya komandiri idi və onun komandiri olduğu bölmə ən hazırlıqlı və intizamlı bölmələrdən idi. Onda komandanlıq batareya komandirini nümunəvi zabit kimi təqdim etmiş və onun bölməsi haqqında qəzetimiz üçün yazı hazırlamağı məsləhət görmüşdü.



Xoşdur ki, Cəlal Mustafayev bu illər ərzində Azərbaycan zabiti adını uca tutub və həmişə şərəfli xidmətilə digər silahdaşlarına örnək göstərilib. Məhz bu səbəbdən və nümunəvi xidmətinə görə komandanlığın təqdimatı ilə zabit Mustafayevə növbəti mayor hərbi rütbəsi vaxtından əvvəl verilib. Belə zabitlərin hərbi hissənin Şərəf lövhəsində yer alması, sözün həqiqi mənasında, qürur hissi doğurur.

Şərəf lövhəsində şəkli vurulmuş zabitlərdən biri də özüyeriyən artilleriya divizionunun komandiri zabit Rauf Şirinovdur. Biz onunla görüşmək və bölməsilə yaxından tanış olmaq məqsədilə zabit Ramin Tağıyevlə birlikdə hərbi hissənin parkına gələrkən bölmə komandirini texnikanın yanında gördük.

Onu vurğulamağa dəyər ki, mayor Rauf Şirinov qardaş Türkiyədə mükəmməl hərbi təhsil almış zabitlərimizdəndir. Füzuli rayonunun Gecəgözlü kəndində anadan olmuş peşəkar hərbçi uzun müddətdir ki, Silahlı Qüvvələrimizdə xidmət edir. Dəfələrlə divizionun döyüş və mənəvi-psixoloji hazırlıq sahəsində qazandığı yüksək nəticələrə görə komandanlıq tərəfindən bölmə komandiri mükafatlandırılıb. Bundan əlavə komandanlığın təqdimatı ilə zabit Rauf Şirinov "Qüsursuz xidmətə görə" üçüncü dərəcəli və "Hərbi xidmətdə fərqlənməyə görə" medalları ilə təltif edilib.

Öz peşəsini yetərincə mənimsəmiş zabit bölmədəki silah və texnikanın döyüşə hazır vəziyyətdə saxlanması üçün bilik və bacarığını əsirgəmir. Biz parka gələrkən o, silah və texnikanı yeni mövsümə hazırlayan hərbi mütəxəssislərin işinə nəzarət edirdi.

Zabit bizimlə söhbətində dedi:

- Gündəlik ixtisas və texniki hazırlıq dərslərini park ərazisində müəyyən edilmiş tədris nöqtələrində keçirik. Atışın idarə edilməsi və kompleks məşğələlər, batareyanın və divizionun taktiki təlimləri təlim mərkəzində çöl şəraitində keçirilir.




Yəni, döyüş hazırlığı planında nəzərdə tutulmuş kompleks tədbirlərin hamısı qrafikə uyğun aparılır.

Divizionun döyüş və mənəvi-psixoloji hazırlıq sahəsində qazandığı yüksək nəticələrə görə komandanlıq tərəfindən bölmə komandiri dəfələrlə mükafatlandırılıb. Bundan əlavə komandanlığın təqdimatı ilə zabit Rauf Şirinov "Qüsursuz xidmətə görə" üçüncü dərəcəli və "Hərbi xidmətlərə görə" medalları ilə təltif edilib.

Şəxsi heyətin döyüş ruhu əslində, döyüş hazırlığı tədbirlərinin səmərəli şəkildə həyata keçirilməsindən, artilleriyaçıların qazandığı bilik və təcrübədən çox asılıdır. Yəni, döyüş vərdişlərinə yiyələnməmiş hərbçidən və bölmədən uğur gözləmək, sadəcə, sadəlövhlük olardı. Eyni zamanda, texniki və taktiki bacarıqla yanaşı, döyüşçülərin sinəsində Vətəni sevən, onun uğrunda canından keçməyə hazır olan ürəyin döyünməsi yetərincə zəruri amil hesab edilir. Bu dəyərin döyüşçülərdə tərbiyə edilməsi isə komandir heyətindən, onların tabelikdəki şəxsi heyətə göstərdiyi obyektiv və ədalətli münasibətdən, şəxsi nümunədən çox asılıdır.

- Mənəvi-psixoloji hazırlıq hər şeydən öncə komandirlərin yanaşmasından asılıdır, - zabit Şirinov deyir. - Mən necə yanaşıramsa, mənim tabeliyimdəki zabitlər də şəxsi heyətə elə yanaşmalıdırlar. Bu münasibət bölməmizdə formalaşıb. Ona görə döyüşçülərlə, xüsusilə gənc əsgərlərlə fərdi söhbət apararkən onların gözlərində o işığı görmək mənə olduqca xoşdur. Bu onların döyüşə hazırlığından xəbər verir. Bütün bunlar onu göstərir ki, istədiyimizə nail ola bilirik.

Yuxarıda qeyd etdiyim kimi, özüyeriyən artilleriya divizionunda döyüş hazırlığının səviyyəsi komandanlıq tərəfindən yüksək qiymətləndirilib. Ən yaxşı bölmələr adı uğrunda yarışlarda adətən divizionun şəxsi heyəti tərəfindən uğurlu nəticələr göstərilib.

2014-cü ildə "Silahlı Qüvvələrin ən yaxşı artilleriya divizionu" adı uğrunda yarışda bölmə ikinci olub. Zabit Şirinovun komandiri olduğu bölmənin bu uğuru onun və digər hərbi qulluqçuların gərgin xidməti, gecə-gündüz demədən çəkilmiş əziyyətin nəticəsində qazanılıb.

- Bizim özüyeriyən artilleriya qurğularının hamısı saz və döyüşə hazır vəziyyətdədir, - zabit Rauf Şirinov vüqarla söyləyir. - Ona görə istənilən zaman həyəcan siqnalı ilə bölməmiz təyin olunmuş əraziyə çıxmağa və düşmənlə döyüş aparmağa qadirdir.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan ordusu"**



# Əmin olduq ki...

## Silah və hərbi texnikalar qışa hazırdır

**_Bu gün Silahlı Qüvvələrin hərbi hissə və birləşmələrində silah və texnikanın payız-qış mövsümünə keçirilməsi ilə bağlı kompleks tədbirlər həyata keçirilir. "N" hərbi hissəsində ezamiyyətdə olarkən şəxsi heyətin bu istiqamətdə gördüyü işlərlə yaxından tanış olduq._**

Zabit Seymur Hüseynov bildirdi ki, Müdafiə nazirinin müvafiq əmrinə uyğun olaraq silah və texnikanın payız-qış mövsümünə keçirilməsinə başlanılıb.

- İşlər uğurla davam etdirilir. Üzərimizə düşən tapşırıqların öhdəsindən vaxtında gəlmək üçün xidməti vəzifəmizə məsuliyyətlə yanaşırıq. Avtomobillərə, həmçinin zirehli texnikalara yüksək səviyyədə texniki xidmət göstərilir. Texnikanın payız-qış mövzümünə keçirilməsi üçün hər bir zabit, hər bir əsgər öz üzərinə düşən vəzifələri peşəkarlıqla icra etməyə çalışır. Hazırlıq işlərinin vaxtında başa çatdırılması üçün zəruri tədbirlər görülür.

Budur, müxtəlif təyinatlı artilleriya qurğuları və zirehli texnikalar üzərində gərgin iş gedir. Silah və texnikaların ayrı-ayrı hissələri təmizlənir, yağlanır və sıxılıb bərkidilir. Əsgərlər bütün işləri həvəslə, yüksək ovqatla görürlər.

- Əsgərlərimiz xidməti vəzifələrinə məsuliyyətlə yanaşırlar, - dedi baş leytenant Bəhruz Məmmədov. - Silah və texnikanın payız-qış mövsümünə keçirilməsi qaydalarına ciddi əməl edirik. Hər kəs yaxşı bilir ki, həm silahlara, həm də zirehli texnikaya vaxtlı-vaxtında texniki xidmət göstərilməlidir. Bu gün torpaqlarımızı qorumaq biz hərbçilərin üzərinə düşür. Buna görə də hazırlığımızı daim artırır, müasir döyüş vərdişlərinə yiyələnirik. Təbiidir ki, texnikasız, silahsız düşmənə qalib gəlmək mümkün deyil. Qələbəmizi asanlıqla təmin etmək üçün texnika və silahlar daim saz vəziyyətdə olmalıdır. Xidmətinə məsuliyyətlə yanaşan əsgərlərdən top komandiri kiçik çavuş Toğrul İsayev, Tacəddin Həsənov, Vüsal Əsgərov, Rahib Rəhimov, Arif İbrahimov, Elnur Hacıyev, Fərid Şəfizadə və başqalarının adlarını çəkmək istərdim. Onlar silah və texnikanın payız-qış mövsümünə keçirilməsi üçün üzərlərinə düşən vəzifələrin öhdəsindən bacarıqla gəlirlər. Belə bacarıqlı və peşəkar əsgərlərlə hər bir tapşırığın öhdəsindən bacarıqla gəlmək olar.

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

*Nümunəvi xidmət*

# Görüşənədək, yoldaş baş leytenant!

## O, əfsanəvi qəhrəmanımız Həzi Aslanovun davamçısı olacağına söz verib

Cəbhə bölgəsinin düşmənlə təmas xəttində yerləşən "N" hərbi hissəsinə yaxınlaşdıqca gözlərimin önündəki dağıdılmış, güllələbaran edilmiş evlər, səs-səmiri kəsilmiş sahibsiz həyətlər müharibəyə nifrət edən bir insan kimi məni də narahat etməyə başladı. Yurduma göz dikib, onun bir hissəsini işğal edən, övladlarının cənazəsi üstündə anaların saçını bir gecədə ağardan, bir milyona yaxın qaçqın ordusunun yaranmasında rol oynayan mənfur düşmənlə demək olar ki, qısa bir zaman və məsafə kəsiyi - tikanlı məftillər ayırırdı məni. KEÇMƏK OLMAZ!!! DUR!!! - məntiqi ilə bu tikanlı məftillər məni hələlik girov düşən, qərib və tənha görünən doğma Vətənimin bir parçasından ayırır...

Zabit Qiyas Abbasov vaxtının az olmasına baxmayaraq, gəlişimin məqsədini biləndə, məni qəbul etdi. Şəxsi heyətlə iş üzrə bölmənin zabitləri mayor Səməd Məmmədov və kapitan Sahib Seyidova göstəriş verərək məqalə hazırlanması üçün mənə şərait yaradılması tapşırığını verdi. Ona minnətdarlığımı bildirərək, vacib işlərində mane olmadan otaqdan çıxdım. Şəxsi heyətlə iş üzrə bölmədə gənc və perspektivli zabit, əlahiddə tank bölüyünün komandiri baş leytenant Orxan Yasin oğlu Həsənov haqqında material hazırlamaq tapşırığını aldım.

O, 1989-cu ilin mayında Naxçıvan şəhərində anadan olub. Orta təhsil illərində əlaçı oxumağı, əxlaqı, arzu və düşüncələri ilə sinif yoldaşlarından fərqlənən yeniyetmə C.Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialına (indiki Heydər Əliyev adına Hərbi Lisey) daxil olur. 2006-cı ildən isə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində tankçı ixtisası üzrə təhsilini davam etdirir. Sonra cəbhə bölgəsindəki "N" hərbi hissəsinin tank taqım komandiri vəzifəsinə təyin edilir. Daim ona verilən tapşırıq və göstərişlərin öhdəsindən layiqincə gələrək komandirlərinin diqqətini özünə cəlb edir. Gənc zabitin bilik, bacarıq və texniki hazırlığını görən komandirləri tərəfindən ona böyük etimad göstərilir - vaxtından əvvəl "baş leytenant" rütbəsinə layiq görülür. Həmin hərbi hissədə Vətənə borcunu ləyaqətlə yerinə yetirməkdə davam edən baş leytenant Həsənov yuxarı komandanlıq tərəfindən Azərbaycan Sılahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinə ixtisasartırma kursuna göndərilir. Bu dəfə isə "N" hərbi hissəsində əlahiddə tank bölüyünün komandiri təyin edilir.

Gənc zabitlə söhbətim maraqlı alındı. Bir hərbçi kimi onda gördüyüm yüksək vətənpərvərlik, tutduğu yolun gələcəyinə və ən əsası



qələbəmizə inam hissləri ürəyimi qürurla doldurdu. O, hər an döyüşə hazır olduğunu, Ali Baş Komandan İlham Əliyev tərəfindən torpaqlarımızın işğaldan azad olunması əmrini səbirsizliklə gözlədiyini və bizim istər hərbi, texniki-təchizat, istərsə də döyüşçülərimizin ruh yüksəkliyi baxımından düşməndən qat-qat üstün olduğumuzu dönə-dönə vurğuladı. Zabitə görə, mənfur düşmənin özü də hərbi üstünlüyümüzə yaxşı bələddir və hər zaman vahimə içərisindədir.

- Müharibə sənin üçün nədir? - sualıma o, - müharibə mənim nəzərimdə fəlakət, ağrı-acı, göz yaşlarından başqa bir şey deyil. Tarix boyu baş verən haqlı və haqsız müharibələr insanları əzmək, öz ideya və siyasətlərini kimlərəsə silah gücünə qəbul etdirməyin bir yoludur, - deyə cavab verdi.

Baş leytenant Həsənov üzərinə düşən məsuliyyəti hiss edərək, bu hiss və inamı səlahiyyətində olan əsgər və zabit heyətinə aşılamaq ruhunda olan bir qəhrəmandır. Gələcək yazımın qəhrəmanı!!! Kim bilir, bəlkə də gələcəyin generalı olacaq bugünkü gənc müsahibim.

Söhbətindən öyrənirəm ki, baş leytenant iki dəfə Sovet İttifaqı Qəhrəmanı, əfsanəvi tank qoşunları generalı Həzi Aslanovu özünə ideal seçib, onun döyüş yolunu davam etdirəcəyinə söz verib.

Qəhrəmanıma "Vətən sizin kimi oğulları ilə fəxr edir və sizə güvənir", - deyərək seçdiyi şərəfli hərbçi həyatında ona uğurlar arzuladım. Bir vaxt Xankəndidə görüşəcəyimiz, orada mənə QƏLƏBƏ soraqlı müsahibə verəcəyi sorağı ilə ondan ayrılıram.

Görüşənədək, yoldaş baş leytenant!



**Minaxanım ƏKRƏMQIZI,**
**"Hərbi Bilik" jurnalı**

# Xəbərlər: hadisələr, faktlar

## İŞİD qruplaşması başçısının müavini öldürülüb



İraq Hərbi Hava qüvvələrinin Bağdadın qərbinə endirdiyi zərbələr nəticəsində İŞİD ekstremist qruplaşması başçısının müavini öldürülüb. AzərTAc TASS informasiya agentliyinə istinadla xəbər verir ki, əməliyyat Fəlluca şəhəri yaxınğında içərisində İŞİD liderlərinin də olduğu səkkiz maşından ibarət avtomobil dəstəsinin hərəkəti barədə alınan operativ məlumat əsasında keçirilib. Öldürülənlər arasında başçının müavini Əbu Xəzifə əl-Yamani ilə bərabər, qruplaşmanın daha 27 üzvü, o çümlədən 11 xarici muzdlu da olub. İŞİD-in lideri Əbu Bəkr əl-Bağdadinin taleyi isə məlum deyil."Əl-Ərəbiyyə" telekanalının məlumatına görə, o, antiterror koalisiyasının Əl-Kaim şəhəri yaxınlığındakı hava hüsumları zamanı ağır yaralanıb.

## ABŞ İraqa daha 1500 hərbçi göndərəcək



Ağ Ev İŞİD-lə mübarizədə İraq ordusuna və kürd silahlılarına kömək göstərmək məqsədi ilə bu ölkəyə 1500 amerikalı hərbçinin göndərilməsini dəstəkləyib. AzərTAc BBC telekanalına istinadla xəbər verir ki, ABŞ Müdafiə Nazirliyinin açıqlamasına görə, əlavə qüvvələr İraq hökumətinin rəsmi xahişi ilə göndərilir və onlar döyüşlərdə bilavasitə iştirak etməyəcəklər. Beləliklə, bu ölkədəki Birləşmiş Ştatlar hərbçilərinin sayı 2900 nəfərə çatacaq. Bundan başqa, yerli orduya İŞİD-ə qarşı əməliyyatlar hazırlamaqda kömək etmək, hökumət və üç kürd briqadalarına təlimlər keçmək üçün nəzərdə tutulmuş bir qrup hərbi müşavir və təlimatçı da göndəriləcək. Pentaqondan verilən məlumata görə, onlar Bağdad və Ərbil şəhərləri yaxınlığında "təlim və dəstək mərkəzi" təşkil edəcəklər.

## "Erməni gücü" dəstəsinin başçısına 32 il həbs cəzası təyin edilib




Los-Anceles (ABŞ) məhkəməsi "Erməni gücü" adlı cinayətkar qruplaşmanın rəhbəri 39 yaşlı Mqer Darbinyanın barəsində hökm çıxarıb. 2011-ci ildə bu qrupun barəsində qaldırılmış cinayət işi üzrə şübhəli şəxslər qismində 90 nəfər istintaqa cəlb edilmişdi. Hazırda onlardan 87-si həbsdə, ikisi axtarışdadır, bir nəfərə qarşı cinayət işinə xitam verilib.

AzərTAc xarici KİV-lərə istinadla xəbər verir ki, hakim Klauzner Darbinyanın dəhşətli cinayətlər törətdiyini əsas gətirərək onu 32 il həbs cəzasına məhkum edib. 250 fəal üzvü olan "Erməni gücü" qruplaşması Rusiyada və Ermənistanda qanuni oğrularla əlaqələri olan və adam öldürməkdən, hədə-qorxu ilə pul qoparmaqdan başlamış, şəxsi məlumatların oğurlanmasına və kompüter dələduzluğuna qədər ən müxtəlif cinayətlər törədən kriminal təşkilata çevrilmişdi. Andlı iclasçılar Darbinyanı hədə-qorxu ilə pul qoparmaqda və bank dələduzluğunda, konkret olaraq "Bank of America", "Citibank" və digər maliyyə müəssisələrinin müştərilərinin rekvizitlərini oğurlamaqda və həmin müştərilərin şəxsi çeklərini saxta yolla hazırlamaqda təqsirli bilib.

## Meksikada itkin düşmüş 43 tələbənin öldürüldüyü məlum oldu



Meksikanın Gerreo ştatının İquala şəhərində sentyabrın axırlarında oğurlanmış 40-dan çox tələbə "Gerreros unidos" cinayətkar qruplaşmasının qurbanı olub. AzərTAc TASS informasiya agentliyinə istinadla xəbər verir ki, bunu istintaqın nəticələrini açıqlayan ölkənin baş prokuroru Xesus Murilo Karam bildirib. Onun dediyinə görə, qruplaşmanın bu yaxınlarda həbs olunmuş üç üzvü tələbələrin öldürülməsində iştirak etdiklərini etiraf edib.

Cinayətkarlar tələbələri güllələyərək cəsədlərini yandırıb, sonra isə basdırıblar. Meksika Prezidenti Enrike Penya Neto həlak olmuş tələbələrin valideynlərinə cinayətkarların cəzadan yaxa qurtara bilməyəcəkləri barədə vəd verib.

Qeyd edək ki, İquala şəhərində polislərin və mülki geyimli şəxslərin təhsil sahəsində islahatlara etiraz edən tələbələri atəşə tutması nəticəsində 6 nəfər ölmüş, 25 nəfər yaralanmış, 43 nəfər isə itkin düşmüşdü. İstintaq zamanı bəlli olub ki, tələbələr polis işçiləri tərəfindən tutulsalar da, sonradan cinayətkarlara təhvil verilib.

## Ukrayna döyüşə hazırlaşır



Ukrayna hökuməti ölkənin şərq vilayəti Donetskə - ruspərəst üsyançılarla döyüş mövqelərinə əlavə hərbi qüvvələr cəlb edib. Buna səbəb kimi Rusiyanın hazırda üsyançıların əlində olan regiona hərbi texnika - tanklar və ağır artilleriya yeritməsi göstərilir.

Ukraynanın Müdafiə naziri Stepan Poltorak cəbhədəki vəziyyətlə bağlı açıqlama verib: "Terrorçu qruplaşmanın əli altında daha çox hərbi gücün toplaşdığını müşahidə edirik. Onların bütün hərəkətlərini və mövqelərini izləyir və hər hansı bir addım atmalarını gözləyirik. Hücumlara qarşı hazır olmalıyıq. Hazırda bizim nəzarətimizdə olmayan ərazilərdə hücumlara qarşı əvvəlcədən tədbir olaraq mövqe dəyişiklikləri edirik".

Amerika hökuməti özünümüdafiə tədbirlərinə görə Ukraynaya haqq qazandırıb. "Biz atəşkəs razılaşmasının davam etdirilməsini istəyərdik. Lakin Rusiyanın Minskdə əldə olunan razılaşmanın şərtlərini pozduğunu görürük. Belə olan halda isə, Ukraynanın öz ərazilərini müdafiə etməsi üçün tam hüququ çatır", - deyə ABŞ dövlət departamentinin mətbuat katibi Cen Psaki qeyd edib.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

Tibb xidməti

# Qayğı və tələbkarlıq uğurların təminatıdır





***Müasir dövrdə Azərbaycanın iqtisadi cəhətdən dinamik inkişafı ölkənin bütün sahələrində olduğu kimi, hərbi təbabətimizin tərəqqisinə də zəmin yaradıb. Dövlət rəhbərliyinin, şəxsən Prezident, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı cənab İlham Əliyevin ordu quruculuğuna göstərdiyi diqqət və qayğının nəticəsi olaraq son illər hərbi səhiyyəmiz müasir tələblər səviyyəsində inkişaf etdirilir. Orduda şəxsi heyətin sağlamlığının qorunması məqsədilə ardıcıl tədbirlər görülür. Bir neçə il öncə dövlətimizin başçısı Silahlı Qüvvələrin Baş Klinik Hospitalının müasir cərrahiyyə korpusunun açılış mərasimində çıxışı zamanı ordu quruculuğunun mühüm bir sahəsi kimi hərbi tibb xidmətinin dünya standartları səviyyəsində qurulacağına əminliyini vurğulamışdı. Artıq nəinki paytaxtımızda, habelə bölgələrdə də hərbi səhiyyənin inkişaf etdirilməsi üçün əməli işlər görülür.***

Bu günlərdə Bakı Qarnizonunun Hərbi Hospitalında olduğumuz zaman çox qısa bir vaxtda burada xeyli işlərin görüldüyünə şahid olduq. Əvvəlki illərlə müqayisədə bu hərbi səhiyyə müəssisəsinin şəraiti kifayət qədər dəyişilib. Yetərincə təmir-abadlıq işləri həyata keçirilib, müalicə bölmələri və diaqnostika-laboratoriya müasir tibbi avadanlıqlarla təmin edilib.

Tibb xidməti polkovniki Vüqar Mürsəlov bizimlə söhbətində Müdafiə Nazirliyinin və Tibb Baş İdarəsinin rəhbərlikləri tərəfindən hospitalın müasir tələblər səviyyəsində fəaliyyəti üçün diqqət və qayğının göstərildiyini bildirərək dedi:

- Əvvəlki dövrdə hospitalın fəaliyyətində çatışmazlıqlar çox olub, binanın və yardımçı tikililərin təmirə ehtiyacı vardı. Tibb Baş İdarəsinin rəisi, hörmətli generalımız Natiq Əliyev bir neçə dəfə bura baş çəkərək qısa vaxtda zəruri tədbirlərin görüləcəyini bildirmişdi. Doğrudan da, ötən bir neçə ayda az işlər görülməyib. Xüsusilə qeyd etmək istərdim ki, müalicə şəraiti yaxşılaşır, hərbi qulluqçular rahat palatalarda müalicə olunurlar. Əlbəttə, bizim əsas məqsədimiz hərbçilərin keyfiyyətli müalicə olunmalarını təmin etməkdir. Maddi-texniki təminatımız da əvvəlki vaxtlarla müqayisədə yaxşılaşıb, xəstələrin düzgün qidalanmasına fikir verilir. Bütün bunlar hazırkı dövrdə dövlətimizin və Müdafiə Nazirliyi rəhbərliyinin ordu quruculuğunun hərtərəfli inkişafına göstərdiyi diqqət və qayğının bariz nümunəsidir.




Sonra hospitalın müalicə şəraiti ilə ətraflı tanışlığa qəbul bölməsindən başlayırıq. Əslində müayinə üçün buraya göndərilən hərbi qulluqçunun ilk müraciət etdiyi ünvan da qəbul bölməsidir. Burada həkim və tibb bacıları xəstələri diqqətlə dinləyir və onları müvafiq həkimlərin yanına göndərirlər. Həkim Xalid Qüdrətov və baş tibb bacısı Sevda Bayramova bölmədə fəaliyyətin düzgün qurulmasında öz bacarıqlarını əsirgəmirlər.

Diaqnostika kabinetində bacarıqlı həkim Mətanət Qafarova ilə həmsöhbət olduq. O bildirdi ki, hazırda müasir diaqnostik avadanlıqlar alınıb, artıq xəstələrin dəqiq müayinə edilməsində heç bir maneə yoxdur.

Hospitalın cavabdeh şəxslərindən biri olan tibb xidməti polkovnik-leytenantı Ceyhun Əkbərovla birgə cərrahiyyə bölməsinə üz tuturuq. Öncə palatada əməliyyatdan çıxmış bir neçə xəstə ilə görüşürəm. Əsgər Səfa Bərdalıyev bildirir ki, bir neçə gün əvvəl əməliyyat olunub və hazırda özünü gümrah hiss edir. Başqa əsgər və matroslar da söhbət zamanı hospitalda nümunəvi müalicə şəraitindən, həkimlərin diqqət və qayğısından razılıqla danışırlar.

Cərrahiyyə bölməsində tibbi personalın nümayəndələri ilə qısa tanışlıqdan öyrənirəm ki, artıq burada öz işini yaxşı bilən peşəkar heyət formalaşıb. Təcrübəli hərbi həkim İslam Məmmədov vəzifə borcunu məsuliyyət hissi ilə yerinə yetirən həkim və tibb bacılarından söhbət açdı, bölmənin səmərəli fəaliyyətində hər bir kəsin zəhmətini vurğuladı. O bildirdi ki, cərrahiyyə korpusu müasir tibbi avadanlıqlarla təmin edilib. Burada çalışan tibbi personal da işgüzarlığı və tələbkarlığı ilə seçilir.

Dəri-zöhrəvi xəstəliklər bölməsində isə döyüş yolu keçmiş bacarıqlı həkim Qabil Cəfərovun rəhbərliyi altında çalışan kollektiv üzərinə düşən vəzifə borcunun öhdəsindən məsuliyyətlə gəlir. İlk ordu quruculuğu dövründən üzü bəri hərbi həkim kimi fəaliyyətdə olan tibb xidməti zabitinə görə, son vaxtlar hərbi qulluqçular arasında yoluxucu, dəri-zöhrəvi və digər xəstəliklərin miqyası tamamilə azalıb. Buna başlıca səbəb isə müasir dövrdə orduda aparılan islahatlar, hərbi hissə və bölmələrdə sanitariya və gigiyena qaydalarına ciddi əməl edilməsidir.

Bakı Qarnizon Hospitalında maddi-texniki təminat bölməsinin işgüzar fəaliyyətindən də hamı razılıq edir. Xəstələr üçün hazırlanan yeməklərin keyfiyyəti artırılıb, peşəkar qadın aşpazlar tərəfindən bişirilən çeşidli xörəklər hərbi qulluqçuların rəğbətinə səbəb olur. Maddi-texniki bölmədə zəruri tapşırıqların vaxtında icra edilməsində peşəkar zabit mayor Rayət İsrafilovun da əməyini, təşəbbüskarlığını və öz xidməti vəzifəsinə tələbkarlığını qeyd etmək yerinə düşərdi.

- Biz vaxtaşırı bölgələrdə ezamiyyətdə oluruq və hərbi hissələrin tibb məntəqələrində çalışan həmkarlarımızla təcrübə mübadiləsi aparırıq, - deyə Vüqar Mürsəlov bizimlə söhbətində vurğuladı. - Məlum avqust hadisələri dövründə də bir qrup həkimlə birgə cəbhə bölgələrinə ezam olunduq və xidməti vəzifəmizi düşmənlə təmas xəttindəki bölmələrdə yerinə yetirdik. Bir məsələni də qeyd edim ki, hazırda ön xəttə yaxın mövqelərdə yerləşən hərbi hissələrdə də tibb xidməti inkişaf etdirilir. Artıq müasir mobil təcili tibbi yardım maşınları bölgələrdə hərbi qulluqçuların ixtiyarına verilib. Bu, imkan verir ki, istənilən ekstremal şəraitdə yaralıya, yaxud xəstəyə tibbi yardım göstərilə bilsin.

Təcrübəli tibb zabitinin də söhbətindən göründüyü kimi, hazırkı dövrdə orduda hərbi təbabətin inkişaf etdirilməsi üçün önəmli işlər görülür və bu tədbirlər Vətənimizin müdafiəsində dayanan hərbi qulluqçuların sağlamlığını etibarlı şəkildə qorumağa imkan verir.

**Arif VAQİFOĞLU,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**Namiq ARİFOĞLUNUNDUR**

## Unutmayaq!

***1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:***

***Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.***
***Şərur rayonunun Kərki və Cünnüt kəndləri (17 fevral 1990) - 19 kv.km.***
***Laçın (17 may 1992-ci il) - 1835 kv.km.***
***Kəlbəcər (3-4 aprel 1993-cü il) - 1936 kv.km.***
***Ağdam (23 iyul 1993-cü il) - 1094 kv.km.***
***Cəbrayıl (18 avqust 1993-cü il) - 1059 kv.km.***
***Füzuli (23 avqust 1993-cü il) - 1386 kv.km.***
***Qubadlı (31 avqust 1993-cü il) - 802 kv.km.***
***Zəngilan (30 oktyabr 1993-cü il) - 707 kv.km.***

**Bu torpaqları azad etmək bizim müqəddəs borcumuzdur!**

## İdman

### Azərbaycan güləşçilərindən növbəti uğur




Moskvada güləş üzrə Avropa Millətlər Kuboku turnirinə yekun vurulub. AzərTAc xəbər verir ki, komanda yarışı xarakterli turnirdə Azərbaycanla yanaşı, Rusiya, Türkiyə, Ukrayna, Belarus, Macarıstan, Bolqarıstan, İsveç yığmaları da iştirak ediblər.

Sərbəst güləş üzrə Azərbaycan yığması həlledici görüşdə Rusiya güləşçiləri ilə qarşılaşıb. Sərbəst güləşçilərimiz turniri ikinci sırada tamamlayaraq Avropa Millətlər Kubokunun gümüş medalına sahib olublar.

Yunan-Roma güləşçilərimiz öz yarımqrupunu ikinci sırada tamamlayıb. Bu nəticə ilə güləşçilərimiz Macarıstan komandası ilə bürünc medal uğrunda görüşə çıxıblar. Rəqibini 6:2 hesabı ilə məğlub edən güləşçilərimiz Avropa Millətlər Kuboku turnirini üçüncü pillədə başa vurublar.

### Boksçularımız Avropa birinciliyində altı medal qazanıblar




Boks üzrə Azərbaycan yığması Rusiyanın Anapa şəhərində keçirilən yeniyetmələr arasında Avropa birinciliyində 1 qızıl, 1 gümüş və 4 bürünc medal qazanıb. Anapaya 13 nəfərlə yollanan yığmamız ümumi komanda hesabında Rusiya və Ukraynadan sonra üçüncü yeri tutub. Azərbaycan Boks Federasiyasından AzərTAc-a bildiriblər ki, boksçumuz Ruslan Rüstəmov (46 kq) ukraynalı Oleq Çulyaçetyev üzərində qələbə qazanaraq fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Bəxtiyar Qazıbəyov (57 kq) ikinci yeri tutub. Pərviz Quliyev (63 kq), Rasim Çobanlı (70 kq), Hacı Dilbazov (75 kq) və Məhəmməd Abdullayev (80 kq-dan yuxarı) üçüncü yerlə kifayətləniblər. Avropa birinciliyində 33 ölkədən 254 boksçu mübarizə aparıb.

### Azərbaycan şahmatında yeni rekord



Şahmatçı Günay Məmmədzadə Azərbaycan üçün yeni rekord göstəricinin müəllifi olub.

AzərTAc xəbər verir ki, 14 yaşlı G.Məmmədzadə Azərbaycanda bu yaşda qrossmeyster adı alan ilk şahmatçı qızdır. Ona qrossmeyster titulu verilməsi haqda qərar FİDE-nin Prezident Şurasının bu günlərdə Soçidə keçirilmiş iclasında qəbul edilib.

### "Azərreyl" Avstriyanın "İnsbruk" kollektivinə qalib gəlib




Qadın voleybolçulardan ibarət Azərbaycan klubları üçün yeni avrokubok mövsümünə start verilib. AzərTAc xəbər verir ki, "Çelenc Cup"un II təsnifat mərhələsinin ilk oyununda Azərbaycan təmsilçilərindən "Azərreyl" Avstriyanın "İnsbruk" kollektivi ilə qarşılaşıb. Bakı təmsilçisi görüşdə rəqibinə heç bir şans verməyib. Oyun "Azərreyl"in 3:0 hesablı qələbəsi ilə başa çatıb (25:10; 25:16, 25:18).

### "Red Bull Local Hero" yarışının qalibi müəyyənləşib



Azərbaycanda ilk dəfə dağ velosipedinin "downhill" (təpədən üzüaşağı) növü üzrə ekstremal idman yarışı keçirilib. AzərTAc xəbər verir ki, yarışın fəxri qonağı, bu növ üzrə bir çox nüfuzlu turnirlərin qalibi slovakiyalı Filipp Polk olub.

Yarışda Kanada, Rusiya və Gürcüstandan olan idmançılar müsabiqədənkənar iştirak ediblər. Ümumilikdə 30-a yaxın idmançı yüksəklikdən üzüaşağı, maneələrlə dolu torpaq yolla hərəkət ediblər. Ən yaxşı nəticəni Azərbaycan yığmasının və "SynergyBaku" kontinental komandasının üzvü Aqşin İsmayılov göstərib. Qalibdən 2 saniyə geri qalan yığma komandamızın digər üzvü Orxan Məmmədov ikinci, Qusardan olan həvəskar velosipedçi Murad Babayev isə üçüncü olublar.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

Baş gizir İsmayılov Nizami Asim oğluna 1997-ci ildə verilmiş müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Gizir Hüseynov Tahir İlqar oğluna 2014-cü ildə verilmiş gizirin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

## Xarici hərbi xronika

### Yüksək sürətə malik helikopter

Rusiya sənaye və ticarət nazirinin müavini Yuri Slysarevin sözlərinə görə, yüksək sürətli bir ədəd helikopterin hazılanmasına 7 milyard rubl vəsaitin xərclənməsi planlaşdırılıb. "Klimov" adına müəssisənin direktoru " RİA" xəbərlər agentliyinə yeni nəsildən olan yüksək sürətli helikopterin ilk nümunəsinin 2015-ci ildə hazır olacağı barədə məlumat verib. Helikopterə 2020-ci il üçün sertifikat da veriləcək. 2025-2030-cu illərə qədər isə maliyyələşmənin həyata keçirilməsi və yeni aerodinamik sistem və bort radioelektron cihazlanma ilə təchizatı həyata keçiriləcək. İkinci mərhələdə hazırlanacaq helikopterin sürəti saatda 450 kilometr təşkil edəcək.

### Helikopterlər dövlət sifarişi əsasında hazırlanıb

İki yeni Mi-35 helikopteri Rostov vilayətində yerləşən Cənub hərbi dairəsinin ordu aviasiyasının silahlanmasına təqdim edilib. Maşınlar sifariş əsasında "Rostvertolyot" zavodunda hazırlanıb. Dövlət sifarışı əsasında 60-dan çox müasir aviasiya maşını alınacaq. Çoxməqsədli hücum helikopteri Mi-24 maşınının modernləşdirilmiş versiyasıdır. Ondan düşmənin zirehli texnikasını və canlı qüvvəsini məhv etmək, quru qoşunlarına və desant bölmələrinə atəş dayağı durmaq, yaralıları daşımaq və s. işləri həyata keçirmək üçün istifadə ediləcək. Helikopter yeni müasir cihazlarla da təchiz edilib.

### Casus robotlar

Amerikalılar casus robotların hazırlanması üçün milyon dollar vəsait xərcləməklə miniatür "casus-təyyarə" hazırlayıblar. Təyyarə kiçik bir quşu təsvir edir". Casus-təyyarə" evin pəncərəsinə qona bilər, otaqda uça bilər və orada nə işlərin görüldüyü haqda məlumat toplaya bilər. Bu qurğu "Aero Vironment" şirkəti tərəfindən yaradılıb. Söhbət "Nanokalibr" adlı pilotsuzdan gedir. Bu kiçik mini kəşfiyyat təyyarəsi həm döyüş sahəsində, həm də şəhər ərazisində manevr etməyə qadirdir. Onu elə hazırlayıblar ki, o quşa oxşayır. Pilotsuz qurğu distansion pultla idarə olunur. Saatda 18 kilometrə qədər məsafəni qət edir. Çəkisi 19 qram təşkil edir. Onun hazırlanmasına 4 milyon dollar vəsait xərclənib.

**Hazırladı:**
**Svetlana NƏSİBQIZI**

## Hərbi xidmət müddətində test

*Təkrar biliyin anasıdır. Bu mənada bəzi bilgiləri elə hərbi xidmət müddətində təkrarlamaq imkanınız var. Bu imkanı Müdafiə Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsi ilə "Azərbaycan Ordusu" qəzetinin "Hərbi xidmət müddətində test" birgə layihəsi verir. Testlər həftədə bir dəfə təqdim olunacaq. Növbəti həftəyə kimi göndərilən cavablar qiymətləndiriləcək. Gecikənlər poçt göndərişinin üzərindəki möhürə əsasən nəzərə alınacaq.*




*Müsabiqəyə ilin sonunda, Dünya Azərbaycanlılarının Həmrəylik Günü ərəfəsində yekun vurulacaq. Həmin müddətdə ən çox bal toplayan əsgərlər mükafatlandırılacaq:*

**I yer - 150 AZN**
**II yer - 100 AZN**
**III yer - 50 AZN**

**"Azərbaycan Ordusu"**

***1. "Yox millətimin imzası imzalar içində" misrasının müəllifi kimdir?***

a) S.Vurğun
b) S.Rüstəm
c) M.Hadi
d) Ə.Cavad

***2. İlk azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı kimdir?***

a) Hüseynbala Əliyev
b) Mehdi Hüseynzadə
c) Gəray Əsədov
d) Qafur Məmmədov

***3. "Ana və poçtalyon" əsərinin müəllifi kimdir?***

a) Məmməd Rahim
b) Səməd Vurğun
c) Rəsul Rza
d) Süleyman Rüstəm

***4. Azərbaycanda hansı dövlətin ərazisi inzibati cəhətdən bəylərbəyiliyə bölünürdü?***

a) Şirvanşahlar
b) Səfəvilər
c) Eldənizlər
d) Ağqoyunlular

***5. Hansı məşhur azərbaycanlı rəssam deyil?***

a) Tahir Salahov
b) Səttar Bəhlulzadə
c) Tokay Məmmədov
d) Ömər Eldarov

***6. Hələbdə dərisi soyularaq edam edilən hansı Azərbaycan şairi olub?***

a) Nəimi
b) Nəsimi
c) Yusif Həllac
d) Həsənoğlu

***7. Hansında qanunauyğunluq pozulub?***

a) Yusif Məmmədəliyev - kimyaçı
b) Ziya Bünyadov - tarixçi
c) Üzeyir Hacıbəyov - bəstəkar
d) Ömər Eldarov - rəssam

***8. Azərbaycanda ilk mətbu orqan hansıdır?***

a) "Molla Nəsrəddin"
b) "Zənbur"
c) "Tazə həyat"
d) "Əkinçi"

***9.*** *"Günəşi örtsə də*
*qara buludlar,*
*Yenə qiymətini*
*özündə saxlar"*

***beyti Səməd Vurğunun hansı əsərindəndir?***

a) "Fərhad və Şirin"
b) "İnsan"
c) "Vaqif"
d) "Zəncinin arzuları"

***10. Qori müəllimlər seminariyasının filialı harda açılıb?***

a) Gəncə
b) Şəmkir
c) Qazax
d) Lənkəran

***11. "Dağlar arxasında üç dost" romanının müəllifi kimdir?***

a) Süleyman Rəhimov
b) İsmayıl Şıxlı
c) İlyas Əfəndiyev
d) Mirzə İbrahimov

***12. "Axırıncı aşırım" bədii filmi hansı yazıçının əsəri əsasında çəkilib?***

a) Əli Vəliyev
b) Anar
c) Fərman Kərimzadə
d) Mövlud Süleymanlı

***13. "Sıravi Əhməd" mahnısının bəstəkarı kimdir?***

a) Emin Sabitoğlu
b) Cavanşir Quliyev
c) Eldar Mansurov
d) Ramiz Mirişli

***14. Naxçıvan xanlığının Rusiya tərəfindən işğalı hansı müqavilə əsasında rəsmiləşdirilmişdi?***

a) Gülüstan
b) Türkmənçay
c) Georgiyevski
d) Heç biri

***15. Səfəvilər Bakını neçənci ildə ilhaq etdi?***

a) 1500
b) 1501
c) 1502
d) 1504.

**Məsul katib**
mayor
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavinləri: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, Akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Rəşid FAXRALI

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə nəşr olunur. "Azərbaycan Ordusu" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Hərbi nəşriyyatın mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 369
Nüsxə 4570